KEYFİYYƏTLİ TƏHSİL GÜNÜN TƏLƏBİDİR

Ramiz Əmirov
İmişli Rayon Təhsil Şöbəsinin müdiri,
əməkdar müəllim

Açar sözlər: *məktəb, şagird, müəllim, təlim-tərbiyə, sinifdənxaric işlər, metod.*
Ключевые слова: *школа, ученик, учитель, учеба и воспитание, внеклассные работы, метод.*
Key words: *school, student, teacher, training, out of school activity, method.*

XXI əsrdə müstəqil Azərbaycan dünyada siyasi cəhətdən ən stabil ölkələr sırasına çıxmış, iqtisadi inkişaf sürətinə görə lider ölkəyə çevrilmiş və nəhayət, ölkəmizdə təhsilin inkişafı üçün hərtərəfli şərait yaradılmışdır.

Artıq neçə illərdir ki, təhsilin mümkün olan zəruri, hüquqi bazası yaradılmış, təhsilin məzmunu və strukturunda müasir dünyanın tələblərinə uyğun dəyişikliklərin aparılması istiqamətində səmərəli işlər görülmüşdür.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il, 11 iyul tarixli sərəncamına əsasən "2011/2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya"nın hazırlanmasına başlanılmışdır. Müstəqil Azərbaycanda informasiya cəmiyyətinin təşəkkülü və biliklərə əsaslanan iqtisadiyyata keçid şəraitində yeni təhsil modelinin qurulmasını təmin edəcək Milli Strategiyanın hazırlanması ölkə rəhbərinin təhsil sahəsinə göstərdiyi müntəzəm diqqət və qayğıya əyani sübutdur. Müasir şəraitdə məktəbin lazımi potensiala malik müəllim kadrları ilə təchizi, onların müasir təlim texnologiyaları ilə işinin təşkili, müəllim-valideyn, müəlim-şagird münasibətlərinin tənzimlənməsi, məktəb psixoloqunun işinin təşkili, və s. də diqqət mərkəzində duran əsas vəzifələrdəndir. Müəllimlərin innovasiyalara yiyələnməsi, treninqlərdə iştirakçılarının təmin edilməsi, eyni bir metodla işləmə prinsiplərindən əl çəkmələrinə nail olunması da bu qəbildəndir. Bir sözlə, təhsil islahatı proqramında deyildiyi kimi, idarəetmənin əsas məqsədi şəxsiyyətin, cəmiyyətin təhsilə olan tələbatını ödəmək üçün həyatımızda aparılan demokratikləşdirmə prosesinə uyğun nəzarət, planlaşdırma, əlaqələndirmə, tənzimləmə funksiyalarının yeni məzmun və formada qurulmasına, yeni idarəetmə modelinə, innovasiyaların tətbiqinə əsaslanmaqdır.

İmişli Rayon Təhsil Şöbəsi tərəfindən həm bu istiqamətdə, həm də 2012/2013-cü dərs ilində "Təhsil Qanunu" və qanunun tətbiq edilməsi ilə bağlı təsdiq olunmuş hüquqi-normativ sənədlərdə irəli gələn vəzifələrin həlli istiqamətində ardıcıl işlər görülmüşdür.

Hazırda rayonda 63 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Bu məktəblərdə 15500-ə qədər şagirdin təlim-tərbiyəsi ilə 1545 müəllim məşğul olur. Müəllimlərin 1180 nəfəri ali, 340 nəfəri orta ixtisas, 25 nəfəri isə ümumi orta təhsillidir. Rayon üzrə müəllimlərin 977 nəfərini (63%) qadınlar təşkil edir.

Ötən dərs ilində pedaqoji kadrların təminatı üzrə məlum "İnkişaf proqramı"nın yerinə yetirilməsi diqqət mərkəzində saxlanılmışdır. 2013/2014-cü dərs ilində rayonumuza Təhsil Nazirliyi tərəfindən 34 müəllim

göndərilmişdir. Onlardan 19 nəfər inkişaf proqramının 1-ci, 15 nəfər isə 2-ci istiqamətləri üzrə rayonun kənd tam orta məktəblərində vakant olan yerlərə təyin olunmuşdur. Rayonumuza gələn müəllimlər hər cür qayğı ilə əhatə olunacaq və onlara lazımi şərait yaradılacaqdır. Ancaq bununla belə, hələ də rayonumuzda əsas ixtisaslar üzrə 76 nəfər müəllimə ciddi ehtiyac vardır.

Məlum olduğu kimi, artıq 3 ildir ki, müəllimlərin işə qəbul olunmasında yeni qaydalar tətbiq olunmuş, onlar Bakı şəhərində imtahan verərək rayon məktəblərində vakant olan yerlərdə işləmək hüququ qazanmışlar. Əlbəttə, bu, çox vacib və əhəmiyyətli bir qaydadır. Bundan sonra təsadüfi adamlar müəllimlər sırasına daxil ola bilməyəcəklər.

2012/2013-cü dərs ilində rayonumuzun təhsil müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması sahəsində xeyli iş görülmüşdür. Belə ki, ötən dərs ilində Hacıbabalı kənd ümumi orta məktəbi üçün 180 yerlik yeni məktəb binası tikilərək istifadəyə verilmiş, Surxanlı 1 nömrəli, Cavadxanlı, Buludlu, Cəfərli kənd 1 nömrəli tam orta məktəblərinin və Şəhər 5 nömrəli məktəb-liseyin binaları yüksək səviyyədə əsaslı təmir edilərək son tamamlama işləri aparılır və yeni dərs ilində istifadəyə veriləcəkdir. Hazırda Ölcələr və Cəfərli kənd 2 nömrəli tam orta məktəbləri üçün yeni məktəb binalarının tikintisinə başlanılmışdır.

2012/2013-cü dərs ilində ümumtəhsil məktəbləri lazımi tədris avadanlıqları və inventarlarla təmin edilmişdir. Yeni dərs ili ərəfəsində Təhsil Nazirliyi tərəfindən 20137 ədəd pulsuz dərsliklər alınaraq rayonun ümumtəhsil məktəblərinə paylanması davam etdirilir. Yenidən çap olunmuş VI sinif dərslikləri Təhsil Nazirliyindən alınaraq məktəblərə paylanacaqdır. Yeni dərs ili başlayana qədər təhsil müəssisələri müxtəlif məktəb sənədləri və sinif jurnalları ilə təmin ediləcəkdir. Hazırda rayonun məktəblərində 493 kompyuter var. 16 məktəb internet şəbəkəsinə qoşulmuşdur. İndi, hər bir təhsil işçisi çalışmalıdır ki, onlardan daha səmərəli istifadə olunsun.

Ötən tədris ilində bir nəfər "Əməkdar müəllim" fəxri adına, Nurulu kənd tam orta məktəbin direktoru Bəşir Məmmədov, Şəhər 1 nömrəli məktəb-liseyin müəllimi Rahilə Şükürova və rayon təhsil şöbəsi metodkabinetinin direktoru Sevdimalı Hüseynov isə "Qabaqcıl təhsil işçisi" döş nişanına layiq görülmüşlər. Ümumiyyətlə, son illərdə rayonumuzda 8 nəfər "əməkdar müəllim" fəxri adına layiq görülmüş, 15 nəfər isə müxtəlif medal və döş nişanı ilə təltif edilmişdir.

Çox sevindirici haldır ki, respublikamızda başqa sahələr kimi, təhsil sahəsi də dövlət tərəfindən hərtərəfli qayğı ilə əhatə olunmuş və daim inkişaf edir.

Respublikada, o cümlədən rayonumuzda təhsil sahəsinə göstərdiyi böyük diqqət və qayğıya görə Respublika Prezidenti cənab İlham Əliyevə və Heydər Əliyev fondunun prezidenti, YUNESKO və USESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevaya bütün rayon ictimaiyyəti, o cümlədən çoxsaylı təhsil işçiləri adından dərin minnətdarlığımızı bildiririk.

Ötən tədris ili ərzində Rayonda təhsilin səviyyəsini daha da yüksəltmək, pedaqoji kollektivlərə kömək etmək üçün məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Təhsil müəssisələrində təlim-tərbiyə prosesinin vəziyyətini öyrənmək və müvafiq istiqamətlər vermək üçün monitorinq və reydlər təşkil edilmiş, müşahidə olunan nöqsanları vaxtında aradan qaldırmağa çalışmışıq.

Tədris ili ərzində əmək intizamı, şagirdlərin məktəbə gündəlik davamiyyətinin yüksək olması diqqət mərkəzində saxlanılmışdır. Ötən tədris ilində də rayonda məktəb rəhbərləri tərəfindən müəllimlərin dərslərinin necə dinlənilib təhlil edildiyi, hansı tövsiyələr verildiyi nəzarətdə saxlanılmış, bu

barədə hər bir direktora fərdi məsləhətlər verilmşdir. Habelə məktəblərdə müəllimlərin müxtəlif ixtisaslar üzrə "Açıq dərslər"inin dinlənilməsi təşkil olunaraq onlara müvafiq təklif və məsləhətlər verilmişdir.

Məlum olduğu kimi, müasir tədris prosesində fəal, interaktiv təlim metodlarından səmərəli istifadə edilməsinə, dərs prosesinə müəllimlərin yaradıcı yanaşmasına xüsusi əhəmiyyət verilir. Qarşıdakı dərs ilində bu məsələlərə diqqəti daha da artıracağıq. Ümumiyyətlə, bilik, bacarığı ilə müasir tələblərə cavab verməyən müəllimlərlə xudahafizləşməyin vaxtı çatmışdır. Elmi və metodik biliyi artırmadan, müasir texnologiyalardan istifadə etməyi kifayət qədər bacarmadan nailiyyət əldə etmək mümkün deyildir.

Məlum olduğu kimi, ümumtəhsil məktəbi həm də tərbiyə məktəbidir. Unutmamalıyıq ki, cəmiyyətin qurucusu olan bütün vətəndaşlar, ilk növbədə, ailədə, məktəbdə formalaşır. Biz övladlarımızı, məktəbliləri yüksək mənəvi dəyərlərə malik, intellektual, məsuliyyətli, zəngin qabiliyyət və bacarıqlara sahib insanlar kimi yetişdirməliyik. Dəfələrlə qeyd etdiyimiz kimi, uşaqların yüksək səviyyədə tərbiyəsi və təhsili müəllim-valideyn əməkdaşlığından çox asılıdır. Bu mənada məktəbdə tərbiyə işinin təşkilinə bütün təlim-tərbiyə prosesinin kompleks vəzifələri kimi yanaşılmalıdır. Gənc nəslin öz ölkəsinin layiqli vətəndaşı kimi yetişməsində, onun kamil insan kimi formalaşmasında məktəbin həlledici rolu danılmazdır. Şagirdlər insan mənəviyyatına dair ilk məlumatları, öz xalqına mümkün qədər çox fayda vermək ideyasını məhz məktəb illərində qazanırlar. Onlar yetkinlik dövründə bəşəriyyəti narahat edən problemlərə münasibət bəsləməyə istiqamətlənməli, bu qlobal işlərdə fəal eştirak etmək üçün zamanın tələb etdiyi mənəvi dəyərlərə yiyələnməli, iqtisadi, sosial, siyasi və mədəni həyatda özünə yer tutmaq, cəmiyyətdəki demokratik cəhətləri fərqləndirə bilmək, yaşadığı mühitdən baş açmaq üçün hərtərəfli hazırlığa malik olmalıdırlar. Bu mənada mürəkkəb bir quruluşa malik olan məktəb tərbiyə sisteminin daim təkmilləşmə prosesi keçirməsi, onun əsl mahiyyətinin zamanın ruhuna köklənməsi günün tələblərindən sayılır.

Bildiyimiz kimi, son illərdə təhsil sahəsində aparılan yeniliklərdən biri də Milli Kurikulum İslahatlarıdır. Burada dövlətin ümumi təhsillə bağlı siyasəti, cəmiyyətin ehtiyac və tələbatı, eləcə də şagirdlərin maraqları üzvi şəkildə əlaqələndirilir. Şəxsiyyətyönlü yeni təhsil modelində uşaqda həyati bacarıqların formalaşdırılması, onun şəxsiyyət kimi inkişafı ön planda durur. Azərbaycan Respublikası təhsil nazirinin 18.07.2013-cü il tarixli 745 nömrəli əmrinə əsasən 2013/2014-cü tədris ilində İmişli rayonu üzrə ümumtəhsil məktəblərinin ibtidai və V-VI siniflərində dərs deyəcək və indiyədək təlimlərdən keçməyən müəllimlər üçün fənn kurikulumlarının tətbiqi üzrə təlim kurslarının təşkilinə ciddi hazırlıq işləri görülmüşdür. Təlimlərə cəlb olunacaq müəllimlərin siyahısı yekun variantda dəqiqləşdirilmiş, məşğələlərin keçirilməsi üçün nəzərdə tutulmuş məktəbdə lazımi şərait yaradılmış, hər bir təlim otağının zəruri texniki vasitələrlə (kompyuter, proyektor və s.) təchiz olunması təmin edilmişdir.

Ötən dərs ilinin yekunları bir daha göstərmişdir ki, yeni kurikulumlarla işin təşkili və onlara uyğun dərsliklərin tətbiqi təlim prosesində şagirdlərin yüksək fəallığının təmin olunması ilə nəticələnmiş, onların məntiqi, tənqidi və yaradıcı təfəkkürlərinin inkişafı sahəsində irəliləyişlərin olduğu müşahidə edilmişdir. Kurikulum islahatı mahiyyət etibarı ilə təhsilin bütün pillələrini əhatə edir. Hazırda V-XI siniflər üçün fənn kurikulumları hazırlanıb başa çatmışdır. Bütün təhsil işçiləri bu kimi yeni sənədləri

tam mənimsəməli və pedaqoji fəaliyyətini bu tələblərə uyğun qurmalıdır.

Ötən müddət ərzində rayonda pedaqoji kollektivlərin iş keyfiyyətini və məsuliyyətini artırmaq üçün məqsədyönlü, planlı tədbirlər həyata keçirilmiş, qarşıya çıxan nöqsanları aradan qaldırmağa çalışmışıq.

Belə ki, ötən dərs ili ərzində rayonun ümumtəhsil məktəblərində sinifdənxaric və məktəbdənkənar işlərin təşkili, Həyati Bacarıqlara Əsaslanan Təhsil kursu, ibtidai siniflərdə yeni fənn kurikulumunun tətbiqi, Mülki Müdafiə işlərinin təşkili, rayon müəllimlərinin informasiya-kommunikasiya texnologiyalarından istifadə bacarıqlarını öyrənmək üçün monitorinqlər aparılmış, nəticələr təhsil şöbəsində geniş təhlil və müzakirə edilərək pedaqoji kollektivlərə və fərdi olaraq ayrı-ayrı müəllimlərə müvafiq tövsiyələr, istiqamətlər verilmişdir. Eyni zamanda, il ərzində məktəblərdə şagirdlərin bilik və bacarıq səviyyəsi, bütövlükdə təlim – tərbiyə işlərinin təşkili vəziyyəti təhsil şöbəsi əməkdaşları tərəfindən öyrənilmişdir.

Ümumtəhsil məktəblərində təlim keyfiyyətini ciddi nəzarətə götürmək, proqram materiallarının şagirdlər tərəfindən mənimsənilməsi səviyyəsini, aşkara çıxarılmış nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər görülməsi istiqamətində ardıcıl iş aparılmışdır. Bu məqsədlə 2012/2013-cü il dərs ilinin I və II yarımillərinin nəticələrinə görə Azərbaycan dili və ədəbiyyatı, Azərbaycan tarixi, riyaziyyat, fizika, kimya, biologiya, coğrafiya, xarici dil fənləri üzrə keyfiyyət göstəriciləri təhlil olunmuş, həmin fənlər üzrə məktəblərin reytinq cədvəli tətbiq olunmuş, yüksək, orta və zəif göstəricisi olan məktəblər müəyyən olunmuşdur.

Ənənəvi olaraq son illərdə olduğu kimi, 2012-2013-cü dərs ilində rayonumuzun 8 nəfər şagirdi olimpiadaların respublika turunda iştirak etmək hüququ qazanmışdır. Şəhər 3 nömrəli tam orta məktəbin XI sinif şagirdi Vüsalə Eynişzadə Azərbaycan dili və ədəbiyyat, şəhər 1 nömrəli məktəb-liseyin IX sinif şagirdi Günəş Mirzəyeva biologiya fənni üzrə 4–cü yeri tutaraq Respublika olimpiadasının qalibi olmuş və Təhsil Nazirliyi tərəfindən müklafatlandırılmışlar.

Ötən tədris ilində ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 90-cı ildönümü münasibətilə məktəblilər arasında müxtəlif nominasiyalar üzrə müsabiqələr, bilik yarışları keçirilmişdir.

Ulu öndərin həyat və fəaliyyətinə həsr olunmuş inşa müsabiqəsində şəhər 1 nömrəli məktəb-liseyin IV sinif şagirdi Əfsanə Abbasova respublika mərhələsində uğurla çıxış edərək Təhsil Nazirliyinin diplomuna layiq görülmüşdür.

Akademik Zərifə Əliyevanın unudulmaz xatirəsinə həsr olunmuş "Ana-müqəddəslik zirvəsi" mövzusunda inşa və əl işləri müsabiqəsi keçirilmişdir. Hər iki nominasiya üzrə qaliblər Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə göndərilmişdir.

Şəhər 5 nömrəli məktəb-liseyin XI sinif şagirdi Xumar Müslümova "qızıl medal"a layiq görülmüş, qəbul imtahanlarında 642 bal toplayaraq Bakı Dövlət Universitetinə qəbul olmuşdur.

Habelə rayonda ulu öndərin anadan olması ildönümünə həsr olunmuş şahmat, futbol və digər idman yarışları keçirilmişdir. 8-15 aprel 2013-cü il tarixdə keçirilən məktəblərin VII Spartakiadasında İmişli Uşaq Gənclər İdman Məktəbinin futbol komandası 18 rayon komandası arasında II yeri tutmuşdur. Həmin Spartakiadada İmişli Şahmat Məktəbinin komandası da II yeri tutmuşdur.

Rayonumuzun 15 yaşlı qızlardan ibarət futbol komandası isə (məşqçi Ələmdar Mustafayevdir) respublika çempionatında uğurla çıxış edərək I yeri tutmuş, qızıl medala və kuboka layiq görülmüşdür.

Dərs ili ərzində rayon üzrə müxtəlif ixtisas müəllimlərinin ayrı-ayrılıqda seminarı keçirilmiş, mövcud nöqsan və çatışmazlıqların səbəbləri, müvəffəqiyyətin yolları geniş təhlil və müzakirə edilmişdir. Məqsəd hər bir müəllimin pedaqoji iş məsuliyyətini artırmaq olmuşdur.

2012/2013-cü dərs ilində rayonun Təhsil Şöbəsi rayonun ümumtəhsil məktəblərində ümumi və tam orta təhsil kursu üzrə buraxılış imtahanlarına hazırlığı və imtahanların gedişini ciddi nəzarətdə saxlamışdır. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən keçirilmiş test imtahanları nəticəsində IX və XI sinif şagirdlərinin hamısına şəhadətnamə və attestat verilmişdir. Bu təşəbbüs rayonumuzun ictimaiyyəti və təhsil işçiləri tərəfindən yüksək razılıq hissi ilə qarşılanmışdır.

Sevindirici haldır ki, 2013-cü ildə rayon üzrə respublikanın dövlət və özəl ali təhsil müəssisələrinə 263 nəfər qəbul olmuşdur ki, onların da 205 nəfəri 2012/ 2013-cü dərs ilində rayonun tam orta məktəblərini bitirən məzunlardır. Bu da 2013-cü ildə ali məktəblərə qəbul olmaq üçün sənəd vermiş 477 nəfərin 42,7 %-ni təşkil edir. Müqayisə üçün qeyd edim ki, bu il ali məktəblərə qəbul olanların sayı ötən ildəkindən 53 nəfər, 2011-ci ildəkindən 83 nəfər, 2010-cu ildəkindən isə 91 nəfər çox olmuşdur.

Ali məktəblərə qəbulun ən yüksək göstəricisi şəhər 5 nömrəli məktəb-liseyində - 23 nəfər olmuşdur. Şəhər 1 nömrəli məktəb – liseydən 21 nəfər, şəhər 7 nömrəli - 17 nəfər, şəhər 2 nömrəli – 12 nəfər, Məzrəli kənd tam orta məktəbindən - 11 nəfər, şəhər 4 nömrəli və Buludlu kənd tam orta məktəblərinin hər birindən 8 nəfər, şəhər 6 nömrəli, Qızılkənd, N.Abışov adına Qaralar, Ölcələr və Muradxanlı kənd tam orta məktəblərinin hər birindən isə 6 nəfər, şəhər 8 nömrəli tam orta məktəbindən isə 5 nəfər ali məktəbə qəbul olmuşdur. Ali məktəbə qəbul olanlardan aşağıda 8 nəfər: Əsmər İsgəndərova, Nizam Zahidli, Aslan Aslanlı, Xumar Müslümzadə, Elçin Nərimanlı, Nail Sadıqzadə, Zöhrə Vəlizadə, Zaur Möhsümzadə 600-dən yuxarı bal toplamışdır.

Bildiyimiz kimi, son illərdə şagirdlərin məktəbə məktəbli formasında gəlməsi üçün xeyli iş görülmüşdür. Bu məsələdə valideynlərin və ictimaiyyətin köməyinə ciddi ehtiyacımız vardır. Hamılıqla ona nail olmalıyıq ki, qarşıdakı dərs ilinin ilk günündən bütün uşaqlar məktəbə məktəbli formasında gəlsinlər.

Rayonumuzun bütün təhsil işçiləri təhsil sahəsində qarşıya qoyulmuş vəzifələri yüksək səviyyədə həyata keçirmək üçün bundan sonra da bütün qüvvə və bacarığını sərf edəcəklər.

Rəyçi: Əməkdar müəllim A.Muradov

Р.Эмиров

Качественное образование - требование дня

Резюме

В статье отмечается, что в годы независимости материально-техническая и правовая база образования значительно окрепла и происходят в нем важные тематические и структурные изменения.

R.Amirov

Qualitative education is the demand of the day

Summary

In this article it is noted that in the XXI century Independent Azerbaijan has become one of the stable countries, developed economically and a good environment has been created for education. During the recent years legal base of education has been created, appropriate changes have been carried out on the maintenance and structure of education in accordance with the demands of the world education system.